**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**"İqtisadiyyat" kafedrasının müdiri:**
**i.ü.f.d., dos. Suqra Hümbətova**

**"İQTİSADİ SİYASƏT" fənni üzrə**
# İŞÇİ TƏDRİS PROQRAMI
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** 00411

**Fənnin növü:** seçmə

**Tədris semestri:** yaz

**Tədris forması:** Əyani

**Fakültə:** İqtisadiyyat və idarəetmə

**Tədris yükü:** 45 saat (30/15)

**Kredit sayı:** 4



Scanned with CamScanner

## II. Fənnin təsviri

Müasir dövrdə iqtisadi siyasətin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. 2007-2008-ci ilin qlobal maliyyə və iqtisadi böhranları və dünya iqtisadiyyatının sonrakı durğunluğu, qeyri-sabitlik və turbulent dalğalanmaları bütün ölkələrin iqtisadi sistemlərinin bir-biri ilə necə əlaqəli olduğunu nümayiş etdirdi. Yaxşı düşünülmüş antitsiklik xəttinin həyata keçirilməsi isə bütün dövlətlərin missiyası kimi çıxış edır.

İqtisadi siyasət dövlətin və digər subyektlərin xüsusi fəaliyyət sferasıdır. Bu siyasətin məqsədi üç qlobal məqsədin təmin olunmasına yönəlib: sülh, rifah, sosial-ədalət. Bu məqsədlərin, xüsusilə, böhranlı vaxtlarda effektiv şəkildə əldə olunması iqtisadi siyasətin elmi, sistemli və məqsədyönlü xarakter daşıması ilə şərtləşir.

Dünya təcrübəsi göstərir ki, iqtisadi siyasət o zaman müsbət nəticələrə gətiirb çıxarır ki, o, çoxtərəfli xarakterə malik olsun, metodoloji cəhətdən əsaslandırılsın, iqtsiadi sistemin inkişaf qanunauyğunluqlarının dərin tədqiqinə söykənsin. Müasir iqtisadi siyasət istənilən ölkənin hökümətləri tərəfindən həyata keçirilir, milli iqtisadiyyatın inkişaf qanunauyğunluqları haqqında dərin biliklər əsasında işlənib hazırlanır və təkmilləşdirilir.

İqtisadi siyasət dövlətin öz hakimiyyətini hansı prinsiplər və konsepsiyalar əsasında həyata keçirdiyini, iqtisadi və sosial problemlərin həlli üçün hansı alətlərdən istifadə etdiyini araşdırır.

## III. Fənnin məqsədi və vəzifələri

İqtisadi siyasət fənninin öyrənilməsində məqsəd təhsil alanlarda müasir şəraitdə iqtisadi siyasətin həyata keçirilməsinin mahiyyəti və əsas yanaşmaları və onunnəticələrinin qiymətləndirilməsi sahəsində biliklərin əldə edilməsi haqqında sistemli kompleks təsəvvürün formalaşdırılmasıdır.

İqtisadi siyasətin tədqiqinin predmeti dövlət və qeyri-dövlət subyektlərinin davranışı və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş məqsədlərə nail olmağın yollarıdır.

"İqtisadi siyasət"fənni əsas nəzəri iqtisadi fənləri tam şəkildə öyrənən tələbələr üçün nəzərdə tutulub. Bu məqsədlə, iqtisadi düşüncənin bacarıqlarını inkişaf etdirmək dərin elmi biliklərə əsaslanır. Bu fənnin öyrədilməsi 15 mövzunun tədrisinə əsaslanır. Bu mövzular ardıcıl və məntiqi olaraq iqtisadi siyasətin bir çox aspektlərini, dünya iqtisadi siyasətinin formalaşmasının prinsip və nümunələrini, eləcə də onun Azərbaycanın sosial-iqtisadi şəraitində həyata keçirilməsinin vacibliyini açıqlayır.

"İqtisadi siyasət" fənni iqtisadiyyat sahəsində mütəxəssis hazırlanmasında fundamental rol oynayır. O, tələbəyə iqtisadi siyasətin yaranma və təkamül prosesini dərk etməyə, orada ümumi və xüsusi olanı müəyyən etməyə imkan verir, gənc mütəxəssisi milli iqtisadiyyatın inkişafının onun tarixi və sosial-iqtisadi inkişaf xüsusiyyətləri nəzərə alınmaqla konkret şəraitində iqtisadi siyasətin modifikasiyasını müəyyən etməyə, habelə xarici ölkələrin təcrübəsini öyrənməyə imkan verən zəruri biliklərlə təmin edir. "İqtisadi siyasət" fənni digər fənlərlə birlikdə milli iqtisadi inkişaf proqramlarının işlənib hazırlanmasının metodoloji əsasını təşkil edir. Bu fənn aşağıdakı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

- Konkret ölkənin bu və ya digər iqtisadi siyasətinin əsasında duran fundamental nəzəri konsepsiyaların təkamülünü tədqiq etmək;
- Əsas iqtisadi fənlərin proqramatik aspektlərini öyrənmək;

- İqtisad elminin metodologiyasını, onun alətlərinin məzmununu, yanaşmalarının təkamülünü, iqtisadi düşüncənin metodoloji əsaslarının, üsul və yollarının müxtəlifliyini və s. öyrənmək;
- İqtisadi inkişafın tarixi prosesini və bazar sahibkarlığı təcrübəsini təhlil etmək.

## IV. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## V. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- İqtisadi siyasətin mahiyyəti və əsas anlayışları haqqında;
- Dövlətin iqtisadi siyasətinin nəzəri əsasları haqqında
- Mürəkkəb dünyada iqtisadi siyasət haqqında
- Dövlət mülkiyyətinin və dövlət bölməsinin dövlətin iqtisadi siyasətinin alətləri kimi rolu haqqında
- Bazar uğursuzluqları və dövlət müdaxiləsinin hədləri haqqında
- İctimai rifahda təhsil və səhiyyənin rolu haqqında
- Fiskal siyasət haqqında
- Monetar siyasət haqqında
- Antiinflyasiya siyasəti haqqında
- Sosial siyasət haqqında
- İqtisadi siyasəti haqqında
- İnvestisiya və struktur siyasəti haqqında
- Antiinhisar siyasəti haqqında
- Regional siyasət haqqında
- Beynəlxalq inteqrasiya siyasəti və valyuta məzənnəsi siyasəti haqqında

**Bacarmalıdırlar**:

- Makroiqtisadi təhlilin aparılmasını
- İqtisadiyyatda struktur dəyişikliklərin, onun parametrləri və indikatorlarının dinamikasının araşdırılmasını
- Qərarların qəbulu şəraitini və reallaşdırılması nəticələrinin qiymətləndirilməsi

Dövlətin antiböhran və sabitləşdirmə siyasətinin mühüm problemlərinin aşkar olunması

## VI. Prerekvizitlər

Prerekvizit fənlər yoxdur.

## VII. Fənnin mühazirə mövzuları

*Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:*

1. İqtisadi siyasət: mahiyyəti və əsas anlayışları
2. Dövlətin iqtisadi siyasətinin nəzəri əsasları
3. Mürəkkəb dünyada iqtisadi siyasət
4. Mülkiyyət institutu: Dövlət mülkiyyəti dövlət siyasətinin aləti kimi
5. Bazar uğursuzluqları və dövlət müdaxiləsinin hədləri
6. İctimai rifah - təhsil, səhiyyə
7. Fiskal siyasət
8. Monetar siyasət
9. Antiinflyasiya siyasəti
10. Sosial siyasət
11. İqtisadi artım siyasəti
12. İnvestisiya və struktur siyasəti
13. Antiinhisar siyasəti
14. Regional siyasət
15. Beynəlxalq inteqrasiya siyasəti və valyuta məzənnəsi siyasəti

## VIII. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlifnöv digər materiallar elektron formatda universitetin saytında (www.unec.edu.az) “EDUMAN” sistemində və şəxsi kabinetdə yerləşdirilir. Məhz mövzular üzrə müvafiq ədəbiyyatlar isə tələbələrin elektron şəxsi kabinetlərində “digər materiallar” bölümündə yerləşdirilmişdir.

## IX. Əsas dərsliklər və əlavə ədəbiyyatlar

**Əsas ədəbiyyat**


**1.** Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011

**2.** Əlirzayev Ə.Q. İqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı metodunun prinsiplərivə qnunauyğunluqları.Bakı 2006

**3.** Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi.Bakı 2012

**4.** A.Ş.Şəkərəliyev. “Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər”. Bakı 2009, 415 səh.

**5.** R.Həsənov. “İqtisadi siyasət: metodologiya və praktika”, dərs vəsaiti. Bakı:“İqtisad Universiteti” Nəşriyyatı, 2009, 282 səh.

**6.** Епанчинцева С.Э. «Экономическая политика». Учебное пособие. Алматы 2019, 108 с.

**7.** Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi. (B.İ.Kuşlinin redaktəsi ilə). Rus dilindən tərcümə.Bakı 2008

**8.** AllahverdiyevH.B. Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Dərslik, Bakı 2012.

**9.** Səmədzadə Z. Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi. Bakı, 2003

**10.** Qafarov Ş.S. Qloballaşma və milli iqtisadi sistem. Bakı 2005

**11.** Qafarov K.S., Əhmədov Ə.M., Əsgərova Z.S.Makroiqtisadi təhlilin əsasları.Bakı 2012

**12.** Bərxudarov M.İ., Məmmədov N.M.. İqtisadi təhlükəsizlik.Bakı 2007

**13.** X.H.Kazımlı, İ.Q.Quliyev.İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi.Bakı 2011

**14.** Морозова Т. Государственная экономическая политика, М. 2008.

**15.** http://e-qanun.az/

## X. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **İqtisadi siyasət: mahiyyəti və əsas anlayışları** | Dövlətin iqtisadi siyasətinin mahiyyəti, iqtisadi siyasətin formalaşması məsələlərinə elmi yanaşmalar haqqında danışılır. Dövlətin iqtisadi siyasətinin əsas prinsipləri, məqsədləri, iqtisadi siyasətin obyektləri və subyektləri, iqtisadi siyasətin alətləri öyrənilir | 1. Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>2. R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>3. A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| 2 | **Dövlətin iqtisadi siyasətinin nəzəri əsasları** | Dövlətin iqtisadi siyasətinin nəzəri əsaslarından bəhs edilir, "Ümumiqtisadi tarazlıq siyasəti", "İqtisadi artım siyasəti", normativ və pozitiv iqtisadi siyasətin mahiyyəti, məqsədləri və vəzifələri öyrənilir. Monetar ve Keyns modelindən, iqtisadi siyasətin neoklassizmdə rolundan, iqtisadiyyatın stabilləşdirilməsi istiqamətlərindən danışılır | 1. Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>2. R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>3. A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| 3 | **Mürəkkəb dünyada iqtisadi siyasət** | Müasir dövrün qlobal problemlərindən danışılır, iqtisadi qeyri-müəyyənlik, onun növləri, əlamətlərindən bəhs olunur. Lukasın tənqidi məsələlərinə toxunulur | 1. Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>2. R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>3. A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| 4 | **Mülkiyyət institutu: Dövlət mülkiyyəti dövlət siyasətinin aləti kimi** | Dövlət mülkiyyəti və dövlət bölməsinin dövlət siyasətinin alətləri kimi rolundan, Dövlət mülkiyyətinin idarə edilməsi problemlərindən, Dövlət mülkiyyətinin idarə edilməsinin xarici təcrübəsindən danışılır. Dövlət mülkiyyətli müəssisələr və ona daxil olan subyektlərin mülkiyyətləri sadalanır. Dövlət mülkiyyətinin idarə edilməsi haqqında qanunvericilik bazasından bəhs olunur | 1. Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>2. R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>3. A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| 5 | **Bazar uğursuzluqları** | Bazar uğursuzluqları sadalanır. Dövlətin iqtisadiyyata müdaxiləsi | 1. Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011 |

| | | | |
|---|---|---|---|
| | **və dövlət müdaxiləsinin hədləri** | zərurəti izah olunur. İqtisadiyyatın tənzimlənməsində dövlətin əsas funksiyaları sadalanır. Direktiv planlaşdırmanın, indikativ planlaşdırmanın xüsusiyyətləri haqqında strateji planlaşdırmanın, proqramlaşdırmanın, proqnozlaşdırmanın və dövlət sifarişlərinin iqtisadiyyatın dövlət tənzimlənməsinin formaları kimi rolları və əhəmiyyətləri haqqında danışılır | **2.**R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.**A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| **6** | **İctimai rifah - təhsil, səhiyyə** | İctimai rifah xarakterizə olunur. İctimai rifah təsnifləşdirilir. | **1.**Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.**R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.**A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| **7** | **Fiskal siyasət** | Dövlət büdcəsinin hazırlanması, baxılması, qəbulu və yerinə yetirilməsinə nəzarət, xərclər-gəlirlər üzrə büdcənin strukturu izah olunur. Büdcədən kənar fondlar və onların müxtəlif səviyyəli büdcələrlə qarşılıqlı əlaqəsi, büdcənin yerinə yetirilməsi qaydası və qiymətləndirilməsi təhlil olunur. Dövlət büdcəsi defisitinin və dövlət borcunun tənzimlənməsi, dövlət borcunun ödənilməsi vasitələri və onların nəticələri haqqında məlumat verilir.<br>Vergi və vergi sisteminin iqtisadi tipləri, vergilərin funksiyaları, vergilər iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas aləti kimi izah olunur. Səmərəli vergi sistemlərinin yaradılmasının prinsipləri, vergi siyasəti, vergi tənzimlənməsinin məqsəd və metodları, real sektorun inkişafının təminində və davamlı iqtisadi dinamikanın saxlanmasında vergi sisteminin rolu göstərilir. | **1.**Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.**R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.**A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| **8** | **Monetar siyasət** | Mövzuda pul-kredit siyasətinin mahiyyəti, məqsəd və vəzifələri göstərilir. Milli Bankın pul-kredit | **1.**Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.**R. Həsənov. "İqtisadi siyasət: |

| | | | |
|---|---|---|---|
| | | siyasətinin işlənməsində və reallaşdırılmasında məsul orqan kimi çıxışı, bank sistemi, onun ikipilləli quruluşu, pul-kredit siyasətinin alətləri, onların təsiri mexanizmi, pul təklifinə və iqtisadi proseslərə təsiri izah olunur. Pul-kredit siyasətinin mexanizmləri, onun fəaliyyət göstərməsinin ümumi sxemləri haqında məlumat verilir. | metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.**A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| **9** | **Antiinflyasiya siyasəti** | İnflyasiyanın mahiyyəti və onun iqtisadi nəticələri, inflyasiyanın tipləri öyrənilir. İnflyasiya səviyyəsinin ölçülməsi, inflyasiyanın yaranma səbəbləri, antiinflyasiya siyasətinin məqsədləri, inflyasiya gözləmələri izah olunur.<br>Qiymətlərin tənzimlənməsinin zəruriliyi, qiymətlərin dövlət tənzimlənməsinin məqsəd və vəzifələri, qiymətlərin növləri və onların strukturu göstərilir. Dövlətin qiymət siyasəti, sabit və tənzimlənən qiymətlər, onların tətbiqi, qiymətlərin tənzimlənməsinin birbaşa və dolayı mexanizmləri, qiymətlərin tərkib elementinin tənzimlənməsi haqqında məlumat verilir. | **1.**Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.**R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.**A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| **10** | **Sosial siyasət** | Mövzuda bazar iqtisadiyyatında sosial siyasətin mahiyyəti və vəzifələri, həyat səviyyəsinin göstəricilər sistemi, həyat səviyyəsi indeksi, insan potensialı inkişaf indeksi haqqında məlumat verilir. Həyat səviyyəsinin dövlət tənzimlənməsinin alətləri, sosial normativlər və sosial proseslərin dövlət tənzimlənməsində onlardan istifadə, əhalinin pul gəlirləri və xərclərinin balansı, əhalinin gəlirinin differensiallaşmasının məhdudlaşdırılması metodları göstərilir.<br>Əhalinin istehlak büdcəsi və dövlət tənzimlənməsi təcrübəsində ondan istifadə, dövlətin sosial xərclərinin istiqamətləri, həyat səviyyəsinin və | **1.**Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.**R. Həsənov. "İqtisadi siyasət: odologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.**A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |

| | | | |
|---|---|---|---|
| | | gəlirin monitorinqi, sosial siyasətin proqramlaşdırılması kimi məsələlərə toxunulur.<br>Əhalinin məşğulluğu və əmək resurslarının istifadəsinin struturuna dövlətin iqtisadi siyasətinin təsiri, məşğulluğun dövlət tənzimlənməsinin əsas istiqamətləri, məşğulluğun səviyyəsinin proqnozlaşdırılması, əmək resurslarının istifadəsinin səmərəliliyi, təhsil sisteminin inkişafı və kadrların hazırlanması proqramının əsaslandırılması haqqında məlumat verilir. | |
| **11** | **İqtisadi artım siyasəti** | İqtisadi tsikllərin mahiyyəti və onların təsnifatı haqqında danışılır. İqtisadi tsiklin fazaları göstərilir. Dövlətin antitsiklik siyasətindən, iqtisadi artımın mahiyyətindən, iqtisadi artım sahəsində dövlət siyasətindən, iqtisadi artım siyasətinin əsas istiqamətlərindən bəhs olunur | **1.** Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.** R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.** A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| **12** | **İnvestisiya və struktur siyasəti** | İctimai təkrar istehsal prosesində investisiyanın yeri, investisiya fəaliyyətinin əsas göstəriciləri, investisiya resurslarının tələb və təklifinin formalaşdırılması mexanizmi haqqında məlumat verilir. İnvestisiya fəaliyyətinin tənzimlənməsi metodları, investisiya mühiti, əlverişli investisiya mühitinin formalaşdırılması vasitələri, xarici investisiyaların tənzimlənməsinin metodları və xüsusi məqsədləri izah olunur.<br>İnvestisiya fəaliyyətinin innovasiyalara istiqamətlənməsi, iqtisadiyyatın strukturu anlayışı, iqtisadiyyatın təşkilati-funksional, təkrar istehsal, texnoloji və resurs strukturu, struktur siyasətinin məqsədləri göstərilir. Dövlətin struktur siyasəti və onun iqtisadi dinamikaya təsiri, struktur siyasətinin reallaşdırma metodları göstərilir | **1.** Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.** R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.** A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |

| | | | |
|---|---|---|---|
| 13 | **Antiinhisar siyasəti** | İnhisarların yaranması səbəbləri, bazarların növləri, rəqabət formaları haqqında məlumat verilir. İnhisarların tənzimlənməsinin zəruriliyi izah olunur, dövlətin antiinhisar tənzimləmə tədbirləri, konyukturanın mahiyyəti, xarakterik cəhətləri və tənzimlənməsi vasitələri göstərilir | **1.** Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.** R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.** A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| 14 | **Regional siyasət** | Regional inkişafın dövlət tənzimlənməsi, regional siyasət, onun məqsəd və vəzifələri haqqında məlumat verilir.<br>Regional inkişafın disproporsiyaları, problem rayonlar və onların tipləri, sosial-iqtisadi inkişafın regional disproporsiyaların aradan qaldırılması metodları, regional siyasətin mexanizmləri izah olunur | **1.** Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.** R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.** A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |
| 15 | **Beynəlxalq inteqrasiya siyasəti və valyuta məzənnəsi siyasəti** | Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi, xarici siyasətdə proteksianizmin və liberalizmin nisbətləri, ölkə iqtisadiyyatının idxal və ixrac sektorlarının qarşılıqlı əlaqəsi, ixracın tənzimlənməsi metodları haqqında məlumat verilir. İdxalın tənzimlənməsinin dövlət tədbirləri. kapitalın hərəkətinin, işçi qüvvəsinin miqrasiyasının, texnologiyaların ötürülməsinin dövlət tənzimlənməsi metodları, tədiyyə balansının tənzimlənməsi istiqamətləri öyrənilir.<br>İqtisadi təhlükəsizlik anlayışı, iqtisadi təhlükəsizliyin dövlət tənzimlənməsi sistemində rolu və yeri haqqında məlumat verilir. İqtisadi təhlükəsizliyin meyarları və göstəriciləri, iqtisadi təhlükələrin təsnifatı, iqtisadi təhlükəsizliyin indikatorları və onların hədd göstəriciləri izah olunur | **1.** Əhmədov M.A., A.C.Hüseyn. Dövlətin iqtisadi siyasəti. Bakı 2011<br>**2.** R. Həsənov. "İqtisadi siyasət: metodologiya və praktika",dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, 282 səh.<br>**3.** A.Ş.Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: reallıqlar, perspektivlər". Bakı 2009, 415 səh. |

## XI. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.
6) Tələbənin məşğələdəki hər bir cavabı 20 ballıq sistem üzrə 0-20 bal arasında (maksimum 20 bal olmaqla) qiymətləndirilir. Tələbə aktivlik balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 5 bal toplayır. Nəticədə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun.

## XII. FƏNN ÜZRƏ KURS ISI

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIII. DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## XIV. YEKUN IMTAHAN

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur.Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal)qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## XV. FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (*Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal

- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:**fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

**B = (((b1+b2+b3+...+bn)/s)*m)/10**

**Burada,**

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.***Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

***QEYD:***İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| Seminar (məşğələ) və dərsə davamiyyətin nəticələrinə görə | 50 | 50 % |
| | | |
| **Cəmi:** | **100** | **100 %** |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.